**UOT 327**

# CƏNUBİ QAFQAZIN GEOSİYASİ MƏNZƏRƏSİ

**Elvin ŞİRİNOV** *

Məqalə redaksiyaya daxil olmuşdur: 12 aprel 2025; çapa qəbul edilmişdir: 27 aprel 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 12th of April, 2025; accepted: 27th of April, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *Cənubi Qafqaz, geosiyasi, dəhliz, rəqabət*

## Giriş

Son bir neçə əsr ərzində regional və qlobal güclər Cənubi Qafqaz üzərində təsir qazanmağa və hegemonluqlarını qorumağa çalışmışlar. Avropa ilə Asiya arasında keçid nöqtəsi olaraq, region uzun müddət regional və beynəlxalq maraqların mərkəzində olmuşdur. Eramızdan əvvəl 2-ci əsrdə, Şərq və Qərb arasında ticarət əlaqələrinin əsas marşrutu olan İpək Yolu Qafqazın şimal və cənub ərazilərindən keçərək, Şimali Qara Dəniz sahilini Çinə, Yaxın və Orta Şərqi Avropaya bağlamışdır. Buna görə, bir neçə regional və dünya gücləri Xəzər dənizi ilə Qara dəniz arasında strateji yerləşmiş Cənubi Qafqaz üzərində nüfuz uğrunda mübarizə aparmışdır. Cənubi Qafqaz Türkiyə və İranla həmsərhəddir və həm Qara dənizə, həm də Xəzər dənizinə bitişikdir. Ermənistan və Azərbaycanla ümumi sərhədləri olan İran vasitəsilə region Fars körfəzinə bağlanır. Rusiyanın bölgəyə marağının əsas səbəbi onun bu coğrafiyaya sahib olması idi. Rusiya, Cənubi Qafqazı Fars körfəzinə və onun hüdudlarından kənara, o cümlədən potensial Hindistana bir qapı kimi görürdü. Eyni zamanda, XIX əsrin əvvəllərində Britaniya Hindistan üzərində öz nəzarətini qurmuş və Rusiyanın İran və Fars körfəzi vasitəsilə Hindistana dənizə və quruya çıxışını qadağan etməklə yarımqitəyə çatmağın qarşısını almağa çalışırdı. Britaniya və Rusiyanın fərqli ambisiyaları Xəzər dənizi ilə Hind okeanı arasında yerləşən torpaqlara, həmçinin Əfqanıstan və Mərkəzi Asiyaya nəzarət uğrunda iki imperiya arasında şiddətli rəqabətə gətirib çıxarmışdı (10).

Digər tərəfdən 1803-1813 və 1826-1828-ci illərdə Rusiyanın İranla apardığı müharibələr, Cənubi Qafqazın geosiyasi mənzərəsini əhəmiyyətli şəkildə dəyişdirdi. Rusiyanın qələbəsi, İranı Cənubi Qafqazdan faktiki olaraq kənarlaşdıran Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə nəticələndi. Gülüstan müqaviləsi ilə Rusiya, Xəzər dənizinin şərq sahilindəki Azərbaycanın böyük bir hissəsini və Dağıstanı nəzarətinə aldı. Türkmənçay müqaviləsi isə daha da ətraflı şəkildə bu ərazilərin Rusiya tərəfindən mənimsənilməsini təmin etdi və Cənubi Qafqazı Rusiyanın idarəetmə sahəsinə daxil etdi. Bu dövrdən sonra, Cənubi Qafqazın siyasi vəziyyəti əsrlər boyu Rusiyanın təsiri altında olmuşdur.

1918-ci ildə Cənubi Qafqaz respublikaları müstəqilliklərini elan etmiş və bu dövlətlər demokratik və sekulyar idarəetmələr qurmuşdur. Məsələn, Azərbaycan Respublikası, 1918-ci ildə qadınlara səs vermə hüququ tanıyan ilk müsəlman ölkəsi olmuşdur.

---

* *doktorant, Azərbaycan Turizm və Menecment Universiteti*
*e-mail:* elvin.shirinov008@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.1053**

Lakin hərbi güc və diplomatik dəstək çatışmazlığı səbəbindən bu hökumətlər sürətlə müstəqilliklərini itirmiş və Bolşeviklər tərəfindən 1920-1921-ci illərdə işğal olunmuşdur.

### 1. Cənubi Qafqazın geosiyasi rolu

Geosiyasət baxımından, Cənubi Qafqaz zonasında Quru ilə Dəniz, talassokratiya ilə tellurokratiya (su üstünlüyü ilə böyük torpaqlara sahib olmaq) anlayışları arasında mübarizə gedir (42). Bu mübarizə, ABŞ, NATO və Avropa Birliyi ölkələri ilə Şərq və Avrasiyaçılıq ideologiyaları arasında təzahür edir. Cənubi Qafqaz, Böyük Aralıq Dənizi-Qara Dəniz-Xəzər regionunun mərkəzi kimi görülür. Bu region Cənubi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrini özündə birləşdirir.

İkinci Dünya Müharibəsinin bitməsindən sonra, SSRİ ilə Qərb arasında baş verən Soyuq Müharibə zamanı, Fars körfəzi və Yaxın Şərq Şərq-Qərb rəqabətinin əsas arenası olmuşdur. Bu dövrdə Cənubi Qafqaz, Sovet qoşunlarının potensial müdaxiləsi və ideoloji təbliğat üçün əhəmiyyətli bir sahə kimi qalırdı. 1990-cı illərdə Sovet hakimiyyəti altındakı qırğınlar nəticəsində, 1991-ci ildə Cənubi Qafqaz ölkələri müstəqilliklərini yenidən bərpa etmişdir.

Günümüzdə coğrafi mövqeyi sayəsində Cənubi Qafqaz hərbi və strateji əhəmiyyəti, eləcə də enerji təminatçısı kimi rolu artmış, iqtisadi və logistika mərkəzinə çevrilmiş və regional güclər arasında bufer zona olaraq geosiyasi əhəmiyyəti artmışdır. Cənubi Qafqaz, geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə həm regional, həm də qlobal güclər üçün vacib bir məkan olduğundan onun gələcəkdəki geosiyasi vəziyyəti, müxtəlif regional və qlobal güclərin maraqlarının qarşı-qarşıya gəlməsi ilə müəyyən ediləcəkdir.

### 2. Mədəni və etnik müxtəliflik

Cənubi Qafqazda 100-dən çox etnik qrup yaşayır. Türk dilli xalqlar, xüsusilə azərbaycanlılar, bölgədə demoqrafik üstünlüyə malikdir. Gürcüstanda, Kartvel dil ailəsinə aid Gürcü dili üstünlük təşkil edir, ermənilər isə hind-Avropa dil ailəsinə malikdirlər. Azərbaycanda həmçinin, İran dillərinə mənsub xalqlar yaşayırlar. Bölgənin tarixi keçmişi, rus dilini çoxsaylı insanlar üçün ortaq dil etmişdir, müstəqillik əldə etdikdən sonra Cənubi Qafqaz respublikalarında rus dilinin əhəmiyyəti gündən-günə azalmaqdadır.

Cənubi Qafqazda Ermeni Apostol Kilsəsi, Gürcü Ortodoks Kilsəsi, Qafqaz Alban Apostol Kilsəsi və Yəhudi Sinaqoqunun gündəlik izləyiciləri müvafiq olaraq, ermənilər, gürcülər, Udinlər və yəhudilərdir. Qafqazın ən qədim yəhudi icması Eramızın V əsrində Qubada məskunlaşmış dağ yəhudiləridir. Qubanın Qırmızı kəndinin 4000 yəhudi sakini var və bu, İsraildən kənarda dünyada yeganə yaşayış məntəqəsidir (40). Hal-hazırda Azərbaycan Respublikasında yəhudilərin sayının 10 mindən çox olduğu qeyd edilir (6). Azərbaycan hökuməti iki milyard dollar vəsait ayıraraq, burada sinaqoq tikdirib (5, s.3). Azərbaycanlılar (Şiə İslamı inancı) dünyada ən sekulyar müsəlmanlar hesab edilir və burada İslam, daha çox mədəniyyətin bir hissəsi olaraq qəbul edilir.

Cənubi Qafqaz respublikaları sekulyar dövlətlərdir. Onlar demokratiyanın əsas prinsiplərini qəbul etmiş, demokratik institutlarını kifayət qədər inkişaf etdirmiş və insan hüquqları və azadlıqlarına hörmət göstərirlər. İnsanlar dini və mədəni normaları fanatik şəkildə tətbiq etmirlər və daha çox Qərb Avropa dəyərlərinə yaxındırlar.

### 3. Geoiqtisadi və siyasi xüsusiyyətləri

Cənubi Qafqaz regional güclər üçün strateji əhəmiyyət daşıyan bir bölgə olaraq, *siyasi təsir* üçün ardıcıl səylər göstərməkdədir. Bu regionun xüsusiyyətlərindən biri Xəzər dənizindən Avropaya gedən hidrokarbon boru kəmərlərinin keçdiyi tranzit mərkəzi olmasıdır. Cənubi Qafqazın neft və qaz ehtiyatları, xüsusilə Azərbaycan ərazisində mövcud olan resurslarla məhdud olsa da, bu region, beynəlxalq enerji bazarlarında mühüm rol

oynayır. Azərbaycan dünya üzrə sübut olunmuş neft ehtiyatlarının təxminən 0,6%-i və təbii qaz ehtiyatlarının 0,8%-i ilə təchiz olunub. Bununla yanaşı, Cənubi Qafqazdan keçən enerji boru kəmərləri, Rusiya və İranın ərazilərini kənarlaşdıraraq, bu resursları daha sürətli və etibarlı şəkildə beynəlxalq bazarlara çatdırır.

Region həmçinin TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) ilə əlaqəlidir və bu, Şimaldan Cənuba, Şərqdən Qərbə olan bütün keçid nöqtələrini idarə edir. Nəqliyyat və kommunikasiya sahəsində liderlik iddiaları olan hər kəs üçün bu regionun nəzarət altına alınması böyük strateji əhəmiyyət kəsb edir.

### 4. Hərbi və geosiyasi əhəmiyyəti

NATO-nun Əfqanıstandakı əməliyyatı Cənubi Qafqazın hərbi tranzit funksiyasını daha da artırmışdır. Cənubi Qafqazdan keçən marşrutlar, xüsusilə Azərbaycanın və Gürcüstanın əraziləri, Əfqanıstana mülki yüklərin daşınmasında mühüm rol oynayır. Bu səbəbdən, region, beynəlxalq güclər üçün hərbi və strateji əhəmiyyətini qorumaqdadır.

*Dondurulmuş münaqişələr.* Cənubi Qafqazın digər bir xüsusiyyəti, dondurulmuş münaqişələr və qismən tanınmış dövlətlərdən ibarət olmasıdır. Regionda başlıca münaqişə Azərbaycan-Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi olub. 2020-ci ildə 44 günlük müharibə ilə Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad edib.

2008-ci ildə Primakov Doktrinasına xarici siyasətində əsas götürən Rusiyanın post-sovet məkanında dominant mövqeyini nümayiş etdirdiyi Gürcüstanla müharibə zamanı Abxaziya və Cənubi Osetiya əraziləri Gürcüstandan ayrılmış və Rusiya tərəfindən tanınıb. Cənubi Qafqazda, bu cür münaqişələr regionun geosiyasi mənzərəsini daha da mürəkkəbləşdirir.

### 5. Yeni Dünya Nizamında Cənubi Qafqaz

Soyuq Müharibədən sonra Cənubi Qafqaz beynəlxalq güclər və regional aktorlar üçün əhəmiyyətli bir geosiyasi sahə halına gəldi. Bölgədə baş verən geosiyasi inkişafı, beynəlxalq və regional aktorlar arasında gedən rəqabətləri hər bir dövlətin xarici siyasətinə necə təsir etdiyini təhlil edək.

*Regional Rəqabətlər, Dağlıq Qarabağ münaqişəsi və "3+3" Prosesi.* Cənubi Qafqazda, Rusiya, Türkiyə və İranın bölgə üzərində təsir uğrunda mübarizəsi, həmçinin Qərbin (Aİ və ABŞ) bu mübarizəyə müdaxiləsi mühüm rol oynayır. Rusiya bölgəni özünün "strateji maraqları" olaraq görür və buna görə də burada sərt hegemonluq tətbiq etməyə çalışır. O, Aİ və ABŞ-ın təsirini öz maraqlarına qarşı təcavüz olaraq görür və 2015-ci ildən sonra Dağlıq Qarabağda sülhməramlı qüvvələr yerləşdirərək, hər üç ölkədə hərbi mövcudiyyətini artırmışdır.

Türkiyə, Azərbaycanı dəstəkləyir və Qafqazda öz təsirini artırır. İran isə, Azərbaycan-Türkiyə yaxınlaşmasından narahatdır və Ermənistanla strateji tərəfdaşlığı möhkəmləndirir. "3+3" prosesi, Rusiya, Türkiyə və İranın Qərb-dominant formatlarına alternativ yaratma cəhdi kimi irəliləyib. Lakin bu təşəbbüs, Ermənistanın Türkiyəni kənarda saxlamaq istəyi və Gürcüstanın Qərb ilə əlaqələrini qorumaq niyyəti ilə qarşılaşır. Ukrayna müharibəsi və İkinci Qarabağ Müharibəsi, eləcə də Suriyada rejimin dəyişilməsi bu rəqabətləri gücləndirmiş və Rusiya ilə İranın təhlükəsizlik tərəfdaşlığını möhkəmləndirmişdir. Hal-hazırda Türkiyə, bir millət, iki dövlət tezisi ilə Cənubi Qafqazda mövcudluğunu gücləndirməkdə davam edir və regiondakı güc balansının Bakı və Ankaranın xeyrinə dəyişməsi ehtimal edilən proqnozlardandır.

*Gürcüstan və Şərq-Qərb Rəqabəti.* Gürcüstanın qərbə yönələn Avro-Atlantik inteqrasiya siyasəti siyasəti və Rusiyanın bu yanaşmaya qarşı verdiyi reaksiyalar, xüsusilə 2008-ci il Rusiya-Gürcüstan müharibəsi ilə daha da dərinləşdi. Gürcüstanın NATO-ya

üzv olmaq istəyinin ardınca baş verən hadisələr, həmçinin Rusiyanın bu ölkə ilə olan münasibətlərini daha gərginləşdirdi. Həm Gürcüstan, həm də Azərbaycan bu müharibə ilə Rusiyasının əslində nə qədər uzağa gedə biləcəyini gördü. ABŞ və Aİ, Rusiyanın Gürcüstanın ərazi bütövlüyünü pozmasını qınasalar da, Aİ Monitorinq Missiyası işğal olunmuş ərazilərə girmədi və Gürcüstan Qərbdən lazımı dəstək ala bilmədi. Ukrayna müharibəsində Gürcüstan hökuməti, müharibəyə qarışmaq istəmədiyini bildirib və Rusiyaya qarşı ikitərəfli sanksiyalar tətbiq etməkdən imtina etməsi Ukrayna ilə münasibətlərini pisləşdirsə də, Gürcüstanın Rusiyaya qarşı münasibətlərində əsaslı bir dəyişikliklərə səbəb olmadı. Gürcüstanın NATO və Aİ-yə üzvlük məqsədi hələ də gündəmdədir və qərb tərəfdaşları ilə əlaqələrini gücləndirməyə davam edir.

Gürcüstanın Qərb yönümlü siyasətinə qarşı Rusiya qarşı mübarizəni davam etdirir, bu isə regiondakı geosiyasi gərginliyi artırır.

*Yaxın Şərqdən gələn geosiyasi gərginliklər*

Cənubi Qafqaz çeşidli geosiyasi rəqabətlərin kəsişdiyi bir bölgə olduğundan baş verən hadisələrin gərginliyi, müəyyən dərəcədə müxtəlif aktorlarla region ölkələrinin ikitərəfli əlaqələrinə daxil olur. Bu baxımdan İsrailin Cənubi Qafqaz siyasəti onun ərəb olmayan müsəlman dövlətləri ilə əlaqələr qurmaq strategiyasının -ədəbiyyatda "periferiya strategiyası" kimi tanınan yanaşmanın – bir hissəsi kimi qiymətləndirilə bilər. Bu strategiyanın yeni mərhələsində İsrailin əsas məqsədi region ölkələrində İranın təsirini balanslaşdırmaq və mümkün olduqda bu dövlətləri Tehrana qarşı təzyiq vasitəsi kimi istifadə etmək olmuşdur. Azərbaycan-İsrail münasibətləri, soyuq müharibədən əvvəl də mövcud idi. Formalaşan "Yeni Dünya Nizamı"nda bu, hərbi və kəşfiyyat əməkdaşlığını əhatə edən strateji tərəfdaşlığa çevrilmişdir. İsrail, Azərbaycan silahlarının təchizatçısı olaraq, təlimlərin və müharibə texnikasının əsas mənbəyidir. İsrail kəşfiyyatının dəstəyi ilə Azərbaycanda 2008-ci ildə "Hizbullah"ın da iştirak etdiyi terror cəhdinin qarşısı alındı. İki ölkə terrorizmlə mübarizə və sərhəd təhlükəsizliyi sahəsində birgə fəaliyyət göstərməyə başladı və beləliklə, İsrail radikal islamçı təşkilatlarla bağlı kəşfiyyat fəaliyyətini həyata keçirə bildi (22, 21).

Müdafiə sənayesi sahəsində əməkdaşlıq zəminində 2020-ci ildə baş verən və 44 günlük müharibədə Azərbaycan "uzaq mənzilli hücum raketləri" mənasını verən İsrail istehsalı LORA raketlərindən və "uzaq mənzilli idarə olunan raketlər" mənasını verən EXTRA raketlərindən istifadə edib. İsrail Azərbaycana texnologiya transferində əsas ölkələrdəndir. Azərbaycan İsrailin enerji ehtiyaclarının təxminən 40%-i təmin edir. Azərbaycan İkinci Qarabağ Müharibəsində İsrailin təchiz etdiyi pilotsuz kəşfiyyat uçuş ("Hermes-900") aparatlarından (5, 9), kamikadze dronlardan (32), HAROP (2) qanadlı raketləri və eləcə də Barak-8 raketindən müdafiə sistemlərində istifadə etmiş (1;3) və Barak-8 raketdən müdafiə sistemilə Ermənistandan Azərbaycana atılan "İskəndər" raketini vurduğu iddia olunur (42). 2016-2020-ci illər arasında Azərbaycan silah idxalının 69%-ni İsraildən həyata keçirib (5, 9). Bu vəziyyət təkcə Ermənistanı deyil, İranı da narahat edib. İran isə, öz növbəsində Azərbaycan-İsrail əməkdaşlığını öz təhlükəsizliyinə təhdid görür və Ermənistanla əlaqələrini möhkəmləndirir. "Cənubi Azərbaycan" məsələsi hər zaman İranın həssas nöqtəsidir. İranlılar "ari" kimliyi diskursundan ermənilərlə ortaq bağ qurur və farslarla ermənilərin ortaq kökdən gəldiyi diskursunu irəli sürürlər. İran etnik mənsubiyyətə üstünlük verir və ortodoks xristian Ermənistanını strateji tərəfdaş kimi görür (4, 6).

İsrailin qondarma soyqırımı tanımaması iki ölkə arasında siyasi böhran yaradan səbəblərdəndir (5, 16). İran ona qarşı qoyulan iqtisadi sanksiyalardan yayınmaqda Ermənistanı birbaşa əməkdaşlıq edə biləcəyi tərəfdaş kimi dəyərləndirib. İran, Ermənistanın enerji ehtiyaclarını ödəyir. İran-Ermənistan qaz-elektrik mübadiləsi sazişi hər iki ölkəyə mövsümi enerji balanssızlığını aradan qaldırmağa imkan verir. İran və Ermənistan 2004-cü ildə 20 illik elektrik enerjisi mübadiləsi sazişi imzalayıblar və bu saziş 2009-cu ildə

fəaliyyətə başlayıb. 2023-cü il avqustun 10-da İrəvanda imzalanan "elektrik üçün təbii qaz" proqramını 2030-cu ilə qədər uzadıblar. Bu sazişlə İran hər il Ermənistana 360 milyon kubmetr qaz ixrac edəcək və bunun müqabilində elektrik enerjisi idxal edəcək. (18)

İran, Naxçıvanla da birbaşa əlaqələrin qurulmasından narahatdır, çünki bu, Azərbaycan üzərindəki təsirini azaldar. İranın digər narahatlığı, "Zəngəzur dəhlizinin" açılması ehtimalıdır, çünki bu, Ermənistan və Rusiya arasında şimal-cənub dəhlizinin mövcudluğuna təhdid yarada bilər. Xüsusən, İranın Rusiya ilə artan təhlükəsizlik əməkdaşlığı fonunda, bu məsələ daha da əhəmiyyət kəsb edir.

Ümumilikdə belə qənaətə gəlmək olur ki, Azərbaycanın İsrail ilə strateji əməkdaşlığı, Ermənistanın isə İran ilə əməkdaşlığı geosiyasi, iqtisadi və təhlükəsizlik məsələləri ilə formalaşır və dövlət siyasətlərini təyin edir. Bu vəziyyət regionda gedən siyasi proseslərdə konkretləşir.

## 6. Ərəb dövlətlərinin Cənubi Qafqazdakı siyasəti və geosiyasi təsirləri

Sovet dövründə Cənubi Qafqazda ərəb dövlətlərinin siyasi və ideoloji mövcudluğu məhdud idi. Bu vəziyyət, əsasən, regionun Moskvanın nəzarəti altında olması, ərəb dünyasının daxili prioritetləri və bölgənin məzhəb tərkibi ilə bağlı idi. Lakin 1991-ci ildən sonra beynəlxalq sistemdə baş verən struktur dəyişikliklər, ərəb dövlətlərinin Cənubi Qafqazla maraqlanmasına səbəb olmuşdur. Bu kontekstdə Körfəz ölkələri, xüsusilə Səudiyyə Ərəbistanı, regiona daxil olmağa və təsir imkanlarını genişləndirməyə çalışmışdır.

*Ərəb dövlətlərinin regiona yönəlik siyasəti əsasən* geosiyasi rəqabət, məzhəb identifikasiyası və soft power (yumşaq güc) alətləri ilə müşayiət olunmuşdur. (27) Bu siyasətin mərkəzində İranın bölgədə artan təsirinin qarşısını almaq və öz ideoloji təsirini genişləndirmək dayanırdı. Azərbaycanın əhalisinin əksəriyyətinin şiə olması səbəbilə ərəb dövlətləri burada sünni məzhəbinə dayanan ideoloji təsir mexanizmlərindən istifadə etməyə çalışmışlar. Səudiyyə Ərəbistanı və bir sıra Körfəz ölkələri vasitəsilə regiona vəhhabi təmayüllü dini institutlar və QHT-lər vasitəsilə yumşaq güc siyasəti tətbiq edilmişdir.

1990-cı illərdə bu cəhdlər daha çox Şimali Qafqaz, xüsusilə Çeçenistan üzərində cəmlənsə də, sonradan Cənubi Qafqazda – xüsusilə Azərbaycanda və Gürcüstanın Acarıstan bölgəsində – özünü göstərməyə başlamışdır. Bu proses transnasyonal dini şəbəkələrin formalaşmasına və bəzi hallarda radikallaşma meyillərinin artmasına gətirib çıxarmışdır. Nəticədə, əvvəllər nəzərəçarpacaq dərəcədə olmayan məzhəb gərginliyi, xüsusilə Azərbaycan kontekstində, siyasi və sosial sabitliyə potensial təhdid kimi çıxış etməyə başlamışdır (36; 12).

Bu gərginliklər regiondaxili və regionlararası geosiyasi qarşıdurmalara zəmin yaratması ehtimalı proqnozlaşdırıla bilər. Məsələn, Azərbaycanda şiə-sünni qarşıdurmasının yaranması potensial olaraq İran və Türkiyəni fərqli tərəflərdə prosesə cəlb edə bilər, bu isə regional güclərin proksi rəqabəti formasında özünü göstərə bilər. Bəzi ərəb dövlətlərinin də bu cür münaqişələrə dolayı yolla müdaxilə etməsi istisna olunmur.

Bundan əlavə, Cənubi Qafqaz və Yaxın Şərq arasındakı əlaqələrin daha təhlükəli aspektlərindən biri də bölgədən Suriya münaqişəsinə könüllü döyüşçülərin axını olmuşdur. Bu proses qlobal təhlükəsizlik, radikalizmin ixracı və hibrid münaqişələr kontekstində təhlil oluna bilər. Məsələn, Azərbaycandan olan şiə mənsubiyyətli könüllülər Əsədə loyal qüvvələrdə, sünnilər isə müxalifət tərəfdə döyüşmüşdür (35). Gürcüstandan olan döyüşçülər isə əsasən İslam Dövləti sıralarında çıxış etmişdir. Bu, Cənubi Qafqaz dövlətlərinin daxili dini strukturunun xarici geosiyasi münaqişələrə necə transfer oluna biləcəyini göstərir.

Digər tərəfdən, ABŞ-ın regionla bağlı yanaşması da bu kontekstdə mühüm rol oynayır. Vaşinqtonun əsas strategiyası İranın beynəlxalq izolyasiyası, İsrailin Cənubi Qaf-

qazdakı mövcudluğunun gücləndirilməsi və Yaxın Şərqdəki qeyri-sabitliyin idarə olunması məqsədlərinə əsaslanır. Lakin bu strategiya əks-təsirlər doğurmuş və regionda geosiyasi qütbləşməni dərinləşdirmişdir. ABŞ-ın İranla enerji əməkdaşlığına qarşı çıxması nəticəsində bəzi region dövlətləri enerji baxımından Rusiyaya daha çox inteqrasiya olunmuş, bu isə Moskvanın onlara qarşı təsir imkanlarını artırmışdır (25). Ermənistan nümunəsində bu, Rusiyanın strateji nəzarətinin daha da güclənməsi ilə nəticələnmişdir.

### 7. Cənubi Asiyadan daxil olan geosiyasi gərginliklər

Pakistan və Hindistan arasındakı münaqişələr Cənubi Qafqaza qədər uzanır. Ermənistan və Azərbaycan, silah ixracatçıları kimi bu iki ölkənin geosiyasi mübarizəsini öz ölkələrinin daxili məsələlərinə daxil etmiş və bu əlaqələr regiondakı daha geniş geosiyasi səhnəyə təsir edib.

Azərbaycan və Pakistan arasında tarixi əlaqələr mövcuddur. Pakistan 1991-ci ildən Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Azərbaycan da Hindistanın Kəşmirdəki insan haqları pozuntularını pisləyir və Pakistanla hərbi əməkdaşlıqda fəaldır. 2003-cü ildən Azərbaycan, Pakistanla müdafiə sazişi imzalayıb, Pakistanın JF-17 döyüş təyyarələrini almağı müzakirə edib və "üç qardaş" Türkiyə-Azərbaycan-Pakistan əlaqələri çərçivəsində əməkdaşlıq edir. 2022-ci ilin iyulunda üç ölkə Dağlıq Qarabağ, Cammu/Kəşmir və Şimali Kipr məsələlərində bir-birlərini dəstəkləyən bir bəyannamə imzaladılar (39)

Bu əməkdaşlıq Azərbaycanın Hindistanla iqtisadi əlaqələrinin güclənməsi ilə ziddiyyət təşkil edir. 2020-ci ildə Azərbaycan Pakistanla ticarətin yalnız 2,5 milyon dollar olduğu halda Hindistana 458 milyon dollar ixrac edib, Hindistan və Azərbaycan, "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi" üzərində birgə işləyir və bu əlaqələr, Şərq-Qərb dəhlizinə qoşulmaqla ixrac marşrutlarını qısaldır (7).

Ermənistan, Rusiya silahlarından asılılığı azaldaraq, Hindistanla daha sıx əməkdaşlıq edir. 2021-ci ildə Ermənistan Hindistandan 40 milyon dollar dəyərində radar sistemləri alıb və 2022-ci ildə yeni raket və sursat müqavilələri imzalayıb. Bu əməkdaşlıq, Ermənistanın Azərbaycana qarşı üstünlüyünü artırmağı və Pakistan-Türkiyə-Azərbaycan tərəfdaşlığını balanslaşdırmağı hədəfləyir. Bu münasibətlərin intensivləşməsi gözlənilir.

### 8. Mərkəzi Asiya və Çinin tranzit dəhlizləri üzərində rəqabət

Qafqaz regionu, Xəzər dənizinin enerji resurslarına və Asiya ilə Avropa arasında ticarət əlaqələrinə mühüm keçid nöqtəsi olaraq strateji əhəmiyyət kəsb edir. Xəzər dənizi regionunun enerjisi, Aİ-nin strateji maraqları üçün vacibdir. Bakı-Tbilisi-Ceyhan və TANAP kimi boru kəmərləri, Aİ-nin enerji təhlükəsizliyinə xidmət edir. Aİ həmçinin yeni nəqliyyat infrastrukturuna, sualtı elektrik kabellərinə və dəmir yol layihələrinə sərmayə qoyur.

Rusiya-Ukrayna müharibəsindən sonra, Gürcüstan və Azərbaycan, "Orta Dəhliz" olaraq artan əhəmiyyətə sahibdir. Rusiya ilə "Şimal Dəhlizi"nin ticarət həcmi azalmaqda ikən, 2022-ci ildə, Orta Dəhliz vasitəsilə yük daşınması altı dəfə artıb. Bu inkişaf, hər bir dövlətin xarici siyasətindəki dəyişiklikləri və regional güclərin öz təsir sahələrini qorumaq məqsədilə həyata keçirdikləri strategiyaları əks etdirir.

Çin Azərbaycan və Gürcüstanda investisiyalarını artırıb. Bakı Ələt Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Asiya-Avropa telekommunikasiya xətti kimi layihələrə sərmayə qoyan Çin, hərbi sahədə də əməkdaşlıq edir.

Gürcüstan Cənubi Qafqazda ticarət axınları və enerji layihələri üçün tranzit ölkə kimi mühüm rol oynayır. Çin həm də artan ticarət tərəfdaşıdır. 2015-ci ildə Çin Gürcüstanın üçüncü idxal tərəfdaşı olub (24). 2025-ci ilin fevral ayında Çin 116 milyon dollar ixrac edib və Gürcüstandan 31,2 milyon dollar idxal edib, nəticədə 85 milyon dollar müsbət ticarət balansı yaranıb. 2024-cü ilin fevralından 2025-ci ilin fevralına qədər Çinin

Gürcüstana ixracı 34,9 milyon dollar (23,1%) azalaraq, 151 milyon dollardan 116 milyon dollara, idxal isə 26,6 milyon dollar (580%) artaraq 4,58 milyon dollardan 31,2 milyon dollara düşüb. (14, 29)

Çin Azərbaycan və Gürcüstana, o cümlədən Bakı Limanına, Bakı-Tbilisi-Qars dəmir yoluna, eyni zamanda Asiya-Avropa telekommunikasiya dəhlizinə investisiyalarını artırıb (33). Çin hərbi sənayesi həmçinin Belarusun "Polonez" raket buraxılış sistemi (MLRS) və Çinin W-300 raketinə əsaslanan Qasirga/Hurricane kimi müəyyən silah sistemlərinin birgə inkişafı və istehsalında Azərbaycana kömək edib. Çin postsovet məkanından kənar Ermənistana 1999-cu ildə NORINCO WM-80 MRLS və 2012-ci ildə "hərbi-texniki əməkdaşlıq" haqqında sazişdən sonra əlavə raketlər də daxil olmaqla, əsas silah sistemləri satan ilk ölkə olub (8, 29).

Rusiyanın Orta Dəhlizə marağı yalnız Gürcüstandakı strateji mövqeyi ilə əlaqəlidir. Ermənistan İrandan Gürcüstana gedən şimal-cənub dəhlizində maraqlıdır və 2015-ci ildə Çinlə memorandum imzalayıb. (24) Lakin Ermənistanın qərb və şərq qonşuları ilə sərhədlərinin bağlı qalması, bu layihənin həyata keçirilməsini çətinləşdirir.

Orta Dəhliz Cənubi Qafqazda Gürcüstan və Azərbaycandan keçməklə, Xəzər dənizindən keçərək, Türkmənistan, Qazaxıstan və Özbəkistana qoşulmaq, Əfqanıstan və Pakistanı əhatə etməklə Çinə çatmaq üçün Türkiyədən başlayan ticarət yolu layihəsidir (9). Bu, həmçinin Qars-Naxçıvan dəmir yolu xətti ilə Azərbaycanın Türkiyə ilə ticarətini asanlaşdıracaq. Nəticə olaraq, İrəvanda, Tehran və Moskvada mövcud olan siyasi və təhlükəsizlik narahatlıqları, regionda potensial iqtisadi imkanları hələ də arxada qoyur. Geosiyasi vəziyyət, Transqafqaz marşrutlarının, həm Mərkəzi Asiya və Çin, həm də Avropa arasındakı əsas enerji və ticarət yollarını necə sıxışdıracağını müəyyən edəcək həlledici amil olacaq.

Rusiya ilə Türkiyə arasındakı gərginlik, Suriyadakı müharibə və 2015-ci ilin noyabrında Türkiyə Hərbi Hava Qüvvələrinin Rusiya təyyarəsini vurması nəticəsində artmışdı. Bu hadisə, xüsusən də Rusiya tərəfindən tətbiq olunan iqtisadi sanksiyalar səbəbindən Türkiyəyə əhəmiyyətli iqtisadi zərər vurdu. Lakin 2016-cı ilin ortalarında Rusiya və Türkiyə münasibətlərində normallaşma baş verdi. Bu, xüsusilə Türkiyədəki dövlət çevrilişinə cəhddən sonra daha da sürətləndi. Rusiya, çevriliş cəhdini pisləyərək, Ərdoğan hökumətini dəstəklədi, bu isə iki ölkə arasında siyasi münasibətlərin yenidən bərpasına şərait yaratdı.

Bu vəziyyət, Cənubi Qafqaz dövlətləri üçün bir sıra dilemmlər yaratdı. Azərbaycan, xüsusilə, Rusiya ilə strateji iqtisadi əlaqələrini qorumağa çalışarkən, Türkiyə ilə olan əlaqələrini də gücləndirmək istədi. Eyni zamanda, Gürcüstan da Rusiya ilə gərginlik yaratmamağa çalışaraq, Türkiyə ilə yaxşı münasibətlərini qorumağa çalışırdı.

Rusiya-Türkiyə münasibətlərinin yaxınlaşması, regional dövlətlər üçün manevr imkanlarını məhdudlaşdıra bilərdi. Onlar üçün ən yaxşı variant, bu iki ölkənin qeyri-konfliktli münasibətlərinin davam etməsi və bununla da regional münaqişələrin həllinə kömək etməsidir.

## 9. Rusiya-İran münasibətlərinin inkişafı

2014-2016-cı illər arasında Rusiya və İran arasında münasibətlər daha da yaxınlaşdı. İslam inqilabından sonra İran Rusiya ilə yaxın əlaqələr qurmağa çalışıb, amma Rusiya bu yanaşmanı həmişə tam qəbul etməyib, xüsusilə də enerji sahəsindəki rəqabət səbəbindən. Lakin Suriyadakı vətəndaş müharibəsi, iki ölkənin maraqlarını yaxınlaşdırdı və bu dövrdə Rusiya, artan Türkiyə gərginliyi ilə əlaqədar olaraq İranla münasibətləri genişləndirmək istədi.

Buna baxmayaraq, Rusiya-İran münasibətlərində enerji sektorunda rəqabət hələ də

mövcuddur. Bu əlaqələrin gələcək inkişafı, həm İran-Qərb, həm də Rusiya-Qərb münasibətlərinin təkamülündən asılıdır. Rusiya-İran münasibətlərinin mövcud vəziyyəti, regional dinamikaya və iqtisadi əməkdaşlığa təsir göstərə bilər, həmçinin regional münaqişələrin həllinə dair perspektivləri müəyyən edəcəkdir.

### 10. Türkiyə-İran rəqabəti və Cənubi Qafqazdakı təsirləri

Sovet İttifaqının dağılmasından sonra Türkiyə və İran arasında əvvəllər mövcud olmuş rəqabət Cənubi Qafqaz kontekstində yenidən aktuallaşdı. Qərb, xüsusilə ABŞ İranın regional təsirinin qarşısını almaq məqsədilə onun təcridinə yönəlmiş siyasət yeritdi və bu mübarizədə Türkiyənin rolunu dəstəklədi (16; 21). İranın Qərb tərəfindən təşviq edilən regional iqtisadi layihələrdən – xüsusilə enerji nəqli şəbəkələrindən – kənarda qalması, Rusiya üçün əlverişli şərait yaratdı. Beləliklə, Moskva Gürcüstan kimi ölkələrə qaz təchizatını azaltmaqla siyasi təsir imkanları qazandı (10).

Azərbaycan kontekstində İran və Türkiyənin təsir strategiyaları fərqlilik göstərdi: İran uzun tarixi-mədəni əlaqələrə və dini ortaq dəyərlərə (şiəlik) əsaslanmağa çalışsa da, sovet dövrünün dünyəviləşdirici təsiri və türklük ideyasının cəlbediciliyi Türkiyənin daha effektli yumşaq güc platforması yaratmasına şərait yaratdı. Azərbaycan rəhbərliyi – Əbülfəz Elçibəy, Heydər Əliyev və İlham Əliyev – türkiyəyönlü, milli kimlik əsaslı siyasət yürütməklə İranın təsir imkanlarını məhdudlaşdırmağa çalışdı.

Türkiyə həmçinin Gürcüstanla da sıx əlaqələr qurdu (212). Gürcüstan Qərb institutlarına inteqrasiya prosesində Türkiyəni strateji tərəfdaş kimi qiymətləndirdi. Lakin prezident Şevardnadze dövründə Gürcüstan İranla da münasibətləri inkişaf etdirməyə çalışdı, hətta Vaşinqton və Tehran arasında vasitəçi rolunu sınaqdan keçirdi (18). Bununla belə, ABŞ-ın bölgədə İranla qarşılıqlı əlaqəyə qarşı çıxması nəticəsində bu cəhdlər davamlı olmadı.

İran isə Ermənistanla münasibətlərini inkişaf etdirərək bölgədəki balanssızlığa qarşı alternativ tərəfdaşlıq qurmağa çalışdı. Bu əməkdaşlıq qismən Türkiyə-Azərbaycan-Gürcüstan üçbucağından doğan narahatlıqlarla bağlı idi. Beləliklə, bölgədə qeyri-rəsmi iki qarşı duran blok – bir tərəfdə Ermənistan, İran və Rusiya, digər tərəfdə isə Türkiyə, Azərbaycan və Gürcüstan – formalaşdı. Rusiya isə müxtəlif kontekstlərdə həm İran, həm də Azərbaycanla praqmatik münasibətləri qorumağa çalışdı. Gürcüstanla isə Rusiya arasında münasibətlər xüsusilə Saakaşvili dövründə kəskinləşdi və 2008-ci il müharibəsi ilə kulminasiya nöqtəsinə çatdı (31). Bu münasibətlər əsas dövlətlərin daxili siyasi vəziyyəti, eləcə də beynəlxalq konfiqurasiyaların dəyişməsi fonunda yenidən formalaşa bilər. Ona görə də regional rəqabət və əməkdaşlıq modelləri dinamik və dəyişkəndir.

### 11. Rusiya-Qərb rəqabəti və Cənubi Qafqazda yeni geosiyasi dinamikalar

Soyuq Müharibənin başa çatması ilə ABŞ və onun Qərb müttəfiqləri beynəlxalq sistemin yenidən formalaşdırılması prosesinə başladı. Bu prosesdə əsas məqsəd Qərb dəyərlərinin universallaşdırılması və mümkün qədər çox ölkənin siyasi və iqtisadi institutlar vasitəsilə Qərbin təsir dairəsinə daxil edilməsi idi. Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) və NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına (Partnership for Peace – PfP) qoşulmaları, Avropa İttifaqı ilə Əməkdaşlıq və Tərəfdaşlıq Sazişlərinin imzalanması bu yanaşmanın praktik təzahürləridir (28).

Rusiya ilkin mərhələdə bu təşəbbüslərə birmənalı reaksiya verməsə də, NATO və Aİ-nin ardıcıl genişlənməsi fonunda bu siyasəti öz maraqları üçün təhdid olaraq dəyərləndirməyə başladı. Moskva hesab edirdi ki, Soyuq Müharibə sonrası əməkdaşlıq çərçivəsində postsovet məkanında, xüsusən də Cənubi Qafqazda onun xüsusi rolu tanınmalıdır. Bu səbəbdən Rusiya, Qərbin bölgədə siyasi nüfuzunun və Türkiyənin "model dövlət"

kimi təşviq edilməsinin öz regional strategiyasına zidd olduğunu düşünürdü.

Əks tərəfdən, Qərb üçün "təsir dairələri" və "bufer dövlətlər" anlayışları artıq aktual deyildi. Bu fikir ayrılığı yeni bir geosiyasi qarşıdurmanın əsasını qoydu. Qərbin "liberal beynəlxalq nizam" quruculuğu istiqamətində atdığı addımlar, Rusiyanın isə "legitim maraq dairələri"ni qorumaq istəyi nəticəsində qarşılıqlı strateji narahatlıqlar getdikcə dərinləşdi.

1990-cı illərin sonlarında Rusiya Yevgeni Primakovun irəli sürdüyü və "Primakov doktrinası" kimi tanınan çoxqütblü dünya düzəni vizyonunu təqdim etdi. Bu doktrina Rusiya tərəfindən ABŞ-ın hegemonluğuna alternativ olaraq, güclər balansına əsaslanan qlobal sistemin təşviqini nəzərdə tuturdu (34; 15).

Avrasiya geosiyasi məkanında isə Rusiya öz təsirini qorumaq məqsədilə Müstəqil Dövlətlər Birliyi (MDB), Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi İttifaqı (Aİİ) kimi regional təşkilatları təşviq etdi və gücləndirməyə çalışdı (40; 19; 13). Bu institutlar həm təhlükəsizlik, həm iqtisadi əməkdaşlıq sahəsində Moskvanın regional liderlik iddiasını nümayiş etdirirdi.

Rusiya-Qərb münasibətləri 2008-ci ildə baş vermiş Rusiya-Gürcüstan müharibəsindən sonra kəskin şəkildə pisləşdi. 2014-cü ildə Rusiyanın Krımı ilhaq etməsi və Ukraynadakı vətəndaş müharibəsinə birbaşa müdaxiləsi münasibətləri ən aşağı həddə çatdırdı (30; 28; 29). Bu hadisələr regionda geosiyasi qarşıdurmaların kəskinləşməsinə, etimadın azalmasına və Cənubi Qafqazın daha da fragmentarlaşmasına səbəb oldu.

**Nəticə**

Nəticə olaraq deyə bilərik ki, Rusiya-Türkiyə və Rusiya-İran münasibətlərinin inkişafı, regional siyasət və təhlükəsizlik mühitini formalaşdıran vacib amillərdən biridir. Hər iki əlaqə, regional güclərin strateji hesablamalarına və əməkdaşlıq imkanlarına təsir edəcək. Rusiya-Türkiyə münasibətlərinin sabitliyi, regional dövlətlər üçün manevr imkanlarını genişləndirə bilər, lakin qeyri-sabitlik həm də əlavə gərginliklərə yol aça bilər. Rusiya-İran münasibətlərinin gələcəyi isə, təkcə ikitərəfli əməkdaşlıqdan deyil, həm də daha geniş geosiyasi münasibətlərin inkişafından asılı olacaq.

Cənubi Qafqaz bu rəqabətin əsas təmas nöqtələrindən birinə çevrilmiş, nəticədə regionda həm geosiyasi, həm də təhlükəsizliklə bağlı dinamikalar əhəmiyyətli şəkildə dəyişmişdir. Qərbin demokratiya təşviqi və inteqrasiya siyasətinə qarşı Rusiya öz təhlükəsizlik arxitekturasını və siyasi təsirini qorumaq üçün daha sərt və müdaxiləçi strategiyalara üstünlük verməyə başlamışdır.

## ƏDƏBİYYAT


1. Düşmənin raketlərini göydə vuran "Barak-8": xarakteristikası (https://banker.az/dusm%C9%99nin-raketl%C9%99rini-goyd%C9%99-vuran-barak-8-xarakteristikasi/).
2. İsrail Qarabağ döyüşlərinin təcrübəsini nəzərə aldı, "Harop"u modernləşdirir (https://www.bizimyol.info/az/news/307120.html).
3. Süleymanov, R. Azərbaycanın "Barak-8" zenit-raket kompleksi – "Dəmir Qübbə"nin əsası (https://poliqon.az/azerbaycanin-barak-8-zenit-raket-kompleksi-demir-qubbenin-esasi/).
4. Aslanlı K. İran-Ermenistan Ekonomik İlişkileri, Ankara, İRAM Yayınları, 2017, 32 s.
5. Cankara Ö. P., Cankara, Y. İran ve Ermenistan gölgesinde İsrail'in Azerbaycan ile stratejik ilişkileri//Uluslararasi Afro-Avrasya Araştirmalari Dergisi c.7, №13, 2022. s. 1-21. (https://dergipark.org.tr/en/download/article-file/2168821).
6. Этническая панорама Азербайджана: Горские евреи//Международный Азербайджанский журнал "IRS – Наследие": // №3, 2002, s.74-77

7. Data retrieved from the Observatory for Economic Complexity (OEC) bilateral country profiles, available on (https://oec.world/en/profile/bilateral-country/ind/partner/aze and https://oec.world/en/profile/bilateral-country/aze/partner/pak).
8. Deen B., Zweers W., Linder C. The EU in the South Caucasus Navigating a geopolitical labyrinth in turmoil. Clingendael Report March 2023
9. Erdoğan R.T. A New Era will be Heralded in Our Region Based on Stability and Prosperity. Speech at the Belt and Road Forum for International Cooperation in Beijing, Presidency of the Republic of Turkey, 14 May. [viewed 15 October 2017].
10. Fromkin D. "The Great Game in Asia" // Foreign Affairs, Spring 1980, p.936-952. (https://ru.scribd.com/document/338295581/The-Great-Game-in-Asia).
11. Fuller L. Gazprom Seeks Again to Pressure Georgia Over Gas Supplies. RFE/RL. 2016
12. Gebullayeva A. Is Azerbaijan Becoming a Hub of Radical Islam? European Stability Initiative. 2008. Retrieved from (https://www.esiweb.org).
13. Hayrapetyan A. CSTO: A Pale Replica of NATO. 2016, Russia Direct. September 8. Retrieved from (https://www.russia-direct.org).
14. https://oec.world/en/profile/bilateral-country/chn/partner/geo
15. Hunter S.T. Islam in Russia: The Politics of Identity and Security. M.E. Sharpe. 2004, p. 298-300.
16. Indyk, M. Watershed in the Middle East. Foreign Affairs, 1993, p.72(3).
17. Kakachia K. Iran and Georgia: Genuine Partnership or Marriage of Convenience? PONARS Eurasia Policy Memo, 2011, 186 p.
18. Kaleji V. Iran's Gas Export to Armenia: From Energy Imbalance in Iran to Russia's Monopoly in the Armenian Gas Market**.** Publication: Eurasia Daily Monitor Volume: 21 Issue: 170 November 20, 2024. (https://jamestown.org/program/expanding-iran-armenia-energy-ties-combat-yerevans-reliance-on-russian-oil).
19. Kubrick P. Commonwealth of Independent States: An Example of Failed Regionalism. Review of International Studies, 2009, 35 p.
20. Lake A. Confronting Backlash States. Foreign Affairs, 1994, 73(2) p.
21. Modebadze V., Sayin, F. M., & Yilmaz, R. Georgian-Turkish Relations since the Breakdown of the Soviet Union. Journal of the Faculty of Economics and Administrative Sciences, Çankırı Karatekin University, 2014, 4(1).
22. Murınson A.The Ties Between Israel and Azerbaijan. The Begın-Sadat Center For Strategıc Studıes Bar-Ilan Unıversıty Mideast Security and Policy Studies No. 110, 2014, 41 p.
23. NATO. Partnership for Peace Programme. (1994, April 7). Retrieved from (https://www.nato.int).
24. New Economic Corridors in the South Caucasus and the Chinese One Belt One Road Feride Inan and Diana Yayloyan The Economic Policy Research Foundation of Turkey (TEPAV) (https://epfarmenia.am/wp-content/uploads/2018/04/New_Economic _Corridors_in_the_South_Caucasus_and_the_Chinese_One_Belt_One_Road_2018.pdf).
25. Newham, R.E. Georgia on My Mind: Russian Sanctions and the End of the Rose Revolution//.Journal of Eurasian Studies, 6, 2 (July 2015).
26. Nye J. S. Soft power: The means to success in world politics. New York, NY: Public Affairs. 2004, 208 p.
27. Partnership for Peace Programme, NATO, April 7, 2016, at: (http://www. nato.int/cps/ en/natolive/topic_50349).
28. Pifer S. The Future Course of US-Russia Relationship. Brookings Institution. 2013, 38 p.
29. Pifer S. US-Russia Relation in the Obama Era: From Reset to Refreeze. Ed. IFSH, OSCE Yearbook 2014, Baden-Baden, Germany: IFSH. 2015 at: (https://ifsh.de.file-CORE/doc/yearbook/eng/14/pifer).
30. Plumer B. A Short Time line of US-Russia Relations//. Washington Post, August 8, 2013. (https://www.washingtonpost.com/ten-reaosn-why-u-s russia-are-at-odds).
31. Schwirtz M., Barnard A., & Chivers C.J. Russia and Georgian Clash Over Separatist Region. The New York Times, August 8, 2008.

32. Shaikh S**.** The Air and Missile War in Nagorno-Karabakh: Lessons for the Future of Strike and Defense, Center for Strategic and International Studies (CSIS), 2020 (https://www.csis.org/analysis/air-andmissile-war-nagorno-karabakh-lessons-future-strike-and-defense (12 Eylül 2021).
33. Shapiro D. US Should Keep an Eye on Rising Chinese Investment in the South Caucasus. Russia Matters, last modified October 1, 2020, 77 p.
34. Simka R. K. Primakov, the Man Who Invented Multipolarity. Russia and India Report, June 5, 2015. (https://rupolitology.ru/wp-content/uploads/2018/06/Gorokhov_A.pdf).
35. Souleimanov E. Azerbaijan Volunteers in Syria Conflict. Central Asia, Caucasus Analyst, February 5, 2014. (https://www.cacianalyst.org/publications/analytical-articles /item /12908-azerbaijanis-volunteer-in-syria-conflict.html).
36. Souleimanov E., & Ehrmann M. The Rise of Militant Salafism and Its Regional Implications. *Middle East Policy*, 2013, 20 (3), p.113-125.
37. The Eurasian Economic Union: Power, Politics and Trade, International Crisis Group, July 20, 2016. (https://www.crisisgroup.org/europe-central-asia/central-asia/eurasian-economic-union-power-politics-and-trade).
38. The Jewish Federation of Greater Portland, 2016. (https://www.jewishportland.org/).
39. Turkey-Azerbaijan-Pakistan Sign Istanbul Declaration, Daily Sabah, July 22, 2022. (https://www.dailysabah.com/politics/diplomacy/turkey-azerbaijan-pakistan-sign-istanbul-declaration).
40. Voitovich, S. The Commonwealth of Independent States: An Emerging Institutional Model. European Journal of International Law, 4. 1993. (https://research.amanote.com/publication/Aa7cAnQBKQvf0Bhi8JcN/the-com mon wealth -of-independent-states-an-emerging-institutional-model).
41. Wezeman P. D., Kuimova A. ve Smith J. Arms Transfers to Conflict Zones: The Case of NagornoKarabakh, SIPRI, (https://www.sipri.org/commentary/topical-backgrounder /2021 /arms-transfers-conflictzones-case-nagorno-karabakh), (7 Aralık 2021).
42. http://cge.evrazia.org/geopolitics_10.shtml

***Резюме***

***Эльвин Ширинов***

***Геополитическая картина Южного Кавказа***

Анализ геополитической картины Южного Кавказа имеет важное значение для понимания стратегической значимости региона, пересечения интересов региональных и глобальных сил, а также его сложной динамики. Данное исследование охватывает прошлое, настоящее и перспективы развития региона, и имеет значение по следующим причинам:

Южный Кавказ играет критическую роль в качестве транзитного узла для торговли и транспортировки энергии между Европой и Азией. Энергетические трубопроводы, такие как Баку–Тбилиси-Джейхан и TANAP, а также транспортные маршруты, как "Средний коридор", имеют фундаментальное значение для энергетической безопасности Европы и глобальной торговли. Исследование показывает, какую роль играют эти коридоры в геополитической конкуренции и как они влияют на экономическое развитие стран региона.

Анализ чётко выявляет интересы, стратегии и взаимодействие основных акторов – России, Турции, Ирана, США и Европейского союза – на Южном Кавказе. Это важно для понимания сложной сети международных отношений, влияния "замороженных конфликтов" на региональную стабильность и различных моделей сотрудничества и конкуренции.

В статье также представлена информация о богатом культурном и этническом разнообразии региона, принципах светского управления, внутренней стабильности, уровне религиозной толерантности и стремлении к интеграции с западными ценностями. Кроме того, рассматриваются потенциальные угрозы, такие как межконфессиональная напряженность и тенденции к радикализации. Делается вывод, что будущее геополитическое положение Южного Кавказа будет зависеть от взаимодействия региональных и глобальных сил. Это поможет политикам, аналитикам и международным организациям глубже понять происходящие процессы в регионе и оценить потенциальные риски. Также проводится анализ факторов, играющих ключевую роль в обеспечении мира и стабильности в регионе.

В целом, это исследование всесторонне представляет сложную геополитическую картину Южного Кавказа, подчеркивает глобальное значение региона и закладывает основу для прогнозирования путей его будущего развития.

**Ключевые слова**: *Южный Кавказ, геополитика, коридор, конкуренция*

***Summary***

***Elvin Shirinov***

***Geopolitical Landscape of the South Caucasus***

The analysis of the geopolitical landscape of the South Caucasus is crucial for understanding the region's strategic importance, the intersection of regional and global powers' interests, and its complex dynamics. This study covers the region's past, current situation, and future development prospects, making it significant for the following reasons:

The South Caucasus serves as a critical transit point for trade and energy transport between Europe and Asia. Energy pipelines such as the Baku-Tbilisi-Ceyhan and TANAP, as well as transportation routes like the "Middle Corridor," are of fundamental importance for Europe's energy security and global trade. This study demonstrates how these corridors play a key role in geopolitical competition and influence the economic development of the regional countries.

The analysis clearly outlines the interests, strategies, and mutual interactions of key actors such as Russia, Turkey, Iran, the United States, and the European Union in the South Caucasus. This is essential for understanding the complex network of international relations, the impact of "frozen conflicts" on regional stability, and various models of cooperation and competition.

The article provides information on the region's rich cultural and ethnic diversity, secular governance principles, internal stability, level of religious tolerance, and tendencies toward integration with Western values. Potential threats such as sectarian tensions and trends of radicalization are also examined. The study concludes that the future geopolitical situation of the South Caucasus will depend on the interplay of regional and global powers. This helps policymakers, analysts, and international organizations better understand the developments in the region and assess potential risks. It also analyzes the key factors that will play a central role in ensuring peace and stability in the region.

Overall, this study presents a comprehensive view of the complex geopolitical landscape of the South Caucasus, highlights the region's global significance, and lays the groundwork for forecasting future development paths.

**Key words:** *South Caucasus, geopolitical, corridor, competition*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.